**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№ 260/1** **22 yanvar 2015-ci il**

**2014-cü ildə Auditor xidmətinin aktual problemləri üzrə keçirilmiş sosioloji sorğunun nəticələrinə dair hazırlanmış tövsiyələr barədə**

Auditorlar Palatasının 2015-2017-ci illər üzrə iş planının 1.11-ci və Palata Şurasının 2015-ci il üzrə iş planının 10-cu "Auditor xidmətinin aktual problemləri üzrə keçirilmiş sosioloji sorğunun nəticələrinin təhlili və tövsiyələrin hazırlanması" barədə müvafiq bəndlərinin icrası ilə əlaqədar, Auditorlar Palatası sədrinin elmi-metodik məsələlər üzrə müşaviri (N.Talıbov) və Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsi (S.Gülməmmədov) tərəfindən hazırlanmış tövsiyələri müzakirə edərək, Auditorlar Palatasının Şurası

**Q Ə R A R A   A L I R:**

1. 2014-cü ildə Auditor xidmətinin aktual problemləri üzrə keçirilmiş sosioloji sorğunun nəticələrinə dair hazırlanmış tövsiyələr təsdiq edilsin (əlavə olunur).

2. Palatanın struktur bölmələrinin rəhbərlərinə (Q.Bayramov, M.Abbasov, S.Gülməmmədov, V.Rəhimov) və məsul şəxslərə (F.Qarayev, N.Talıbov, R.Cəfərli, R.Ələkbərov) tapşırılsın ki, tövsiyələrdə nəzərdə tutulmuş tədbirlərin vaxtında və keyfiyyətlə icrasını təmin etsinlər.

3. Bu qərarın və tövsiyələrin mətninin Palatanın internet səhifəsində yerləşdirilməsi F.Qarayevə və R.Ələkbərova həvalə edilsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**